**UOT 336.714**

# BİZNES FƏALİYYƏTİNİN MÜFLİSLƏŞMƏ RİSKİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**M.S.HÜSEYNOVA, Z.M.QASIMOVA**
**Sumqayıt Dövlət Universiteti**

*Məqalədə biznes fəaliyyətinin müflisləşmə riskinin müəyyən edilməsinin zəruriliyi araşdırılmışdır. Müflisləşmə riskinin qiymətləndirilməsi və onun azaldılması yolları tədqiq edilmişdir. Məqalənin sonunda nəticələr çıxarılmışdır ki, bunlar da təklif və tövsiyə xarakterlidir.*

***Açar sözlər:*** *biznes, riks, müflisləşmə, iqtisadi təhlükəsizlik, maliyyə*

Məlumdur ki, biznes fəaliyyəti iqtisadi fəaliyyət sahəsinin bir növüdür. Müasir şəraitdə biznes fəaliyyəti insan cəmiyyətinin iqtisadi həyatının bütün sahələrində özünü büruzə verir. İqtisadi fikirlərin inkişafında olan dəyişikliklərin araşdırılması göstərir ki, biznes haqqındakı düşüncələr bu fəaliyyət istiqamətinin təkamülünü xarakterizə edir. Biznes fəaliyyəti bazar münasibətləri şəraitində bütün ölkələrin iqtisadiyyatının ayrılmaz hissəsidir. Belə ki, biznes fəaliyyəti olmadan bazar iqtisadiyyatı fəaliyyət göstərə və inkişaf edə bilməz. Onun yaradılması və inkişafı mərkəzləşdirilmiş idarəetmə sistemindən açıq bazar iqtisadiyyatına keçid şəraitində iqtisadi siyasətin əsas problemlərindən biridir. Hər bir ölkənin iqtisadi inkişaf səviyyəsini, ümumi milli məhsulun tərkibi və keyfiyyətini biznes fəaliyyəti müəyyən edir. Biznes fəaliyyəti riskli fəaliyyətdir. Müasir biznes fəaliyyətini risksiz təsəvvür etmək mümkün deyil. Biznes fəaliyyətində risk iqtisadiyyatın vəziyyəti, siyasi qeyri-sabitlik, rəqiblərin, cinayətkar qrupların qeyri-qanuni hərəkətləri, təbii fəlakətlərlə bağlıdır. Biznes fəaliyyətinin həyata keçirilməsi zamanı risklərin təzahür etməsinin obyektiv səbəbləri mövcuddur. Çünki, bütün amillərin firmanın fəaliyyətinə təsirini əvvəlcədən hesablamaq olmur. Nəzərdə tutulmuş fəaliyyətin həyata keçirilməsi prosesində isə bir çox amillər gözlənilməz şəkildə dəyişə bilər. Buna görə də sahibkar firmanın həyat dövrünün bütün mərhələlərində itkiyə məruz qala bilər. Bu isə onun müflisləşməsinə gətirib çıxara bilər. Bazar münasibətləri şəraitində rəqabətə davam gətirmək üçün texniki yeniliklərin tətbiqi, cəsarətli və həlledici addımlar tələb olunur ki, bu da riski artırır. Deməli, sahibkarın əsas vəzifəsi riskdən yayınmaq deyil, riskin dərəcəsini dəyərləndirib onu idarə etmək bacarığıdır. Bütün bunlar biznes fəaliyyətinin müflisləşmə riskinin qiymətləndirilməsi və idarə edilməsinin nə qədər aktual problem olduğunu göstərir.

***Biznes fəaliyyətində müflisləşmə riskinin müəyyən edilməsi***

Beynəlxalq təcrübə göstərir ki, biznes fəaliyyətinə bazar iqtisadiyyatının formalaşması və inkişafının ilkin şərti kimi yanaşmaq lazımdır. Biznes fəaliyyətinin inkişafına əlverişli şəraitin yaradılması formalaşan iqtisadi sistemin xarakterindən, məzmunundan, iqtisadi sistemin məqsədindən və bu məqsədi həyata keçirən resurs təminatından və onların təşkili metodlarından asılı olur. Məhz bunlar son nəticədə biznes fəaliyyətinin inkişaf dinamikasını, ona dövlətin himayəsi mexanizmlərini və idarəedilmə strukturlarını formalaşdırır. Biznes fəaliyyətinin inkişafı mülkiyyət münasibətlərinin forma və məzmunu ilə əlaqədar dəyişir, yeni sahə və ərazi quruluşuna malik olur. Bu baxımdan biznes fəaliyyətinə ölkənin ümumi iqtisadi inkişafının daxili elementi, həmçinin iqtisadi artımın başlıca amili kimi yanaşılmalıdır [1, səh.202].

Lakin bütün bunlara baxmayaraq biznes subyektlərinin fəaliyyətlərində bir çox çatışmamazlıqlar hələ də mövcuddur. Bu isə onların mənfəətinin azalmasında və zərərin artmasında özünü daha aydın göstərir. Bunu onların fəaliyyətlərinin maliyyə nəticələrini təhlil edərkən daha aydın görmək olar. Qeyd edək ki, maliyyə təhlilinin köməyilə biznes subyektlərinin maliyyə dayanaqlığını obyektiv qiymətləndirmək, maliyyə resurslarından istifadənin səmərəliliyini müəyyənləşdirmək, mütərəqqi maliyyələşdirmə mənbələrini aşkara çıxarmaq mümkündür. Müflisləşməyə səbəb olan maliyyə çətinliklərinin yaranması əksər hallarda iqtisadiyyatın strukturunun yenidən qurulması ilə əlaqədardır. Məhz belə yenidənqurma respublikamız üçün səciyyəvidir və istənilən biznes fəaliyyətinin və maliyyə vəziyyətinin təhlili böhran aspektini nəzərə almalıdır.

***Biznes fəaliyyətinin müflisləşmə riskinin qiymətləndirilməsi və azaldılması yolları***

Maliyyə təhlili biznes fəaliyyətinin müflisləşmə riskini proqnozlaşdırmaq və onun həmin böhran vəziyyətindən çıxması üçün qabaqcadan fikirləşmək və tədbirlər görməkdə geniş vasitələrə malikdir. Müflisləşmə mürəkkəb prosesdir və hüquqi, idarəetmə, təşkilati, maliyyə, uçot-analitik və digər müxtəlif möv-

qelərdən səciyyələndirilə bilər. Müflisləşmə proseduru sahibkarın uğursuz fəaliyyətinin yekun mərhələsini əks etdirir. O, təsadüfi hallarda sahibkarın, mühüm kontragentlərin və rəqiblərin inkişafı meyillərini vaxtaşırı olaraq izləyən təcrübəli maliyyəçi və menecerlər üçün gözlənilməz ola bilər.

Müasir iqtisad elmində maliyyə göstəricilərinin, o cümlədən mümkün müflisləşmə riskinin qiymətləndirilməsi göstəricilərinin proqnozlaşdırılmasının çox saylı müxtəlif üsul və metodları mövcuddur. Müflisləşmə vəziyyətinin yaranması obyektiv və subyektiv səbəblərlə əlaqədardır. Müəssisənin müflisləşməsi bir anda baş vermir, o, müxtəlif xarici və daxili amillərin kombinasiyası ilə şərtlənə bilər. Həmin amillərin nisbəti konkret vəziyyətlərdə müxtəlif ola bilər və yalnız müəssisənin özünün fəaliyyət xüsusiyyətindən deyil, eləcə də fəaliyyət göstərdiyi ölkənin iqtisadi inkişafından da asılıdır. Belə ki, bəzi ədəbiyyatlarda göstərilir ki, qərb ölkələrində müflisləşmənin 2/3 hissəsi daxili, 1/3 hissəsi isə xarici səbəblərlə izah olunur [3, səh.43].

Respublikamızda müəssisələrin maliyyə çətinliklərinin 2/3 hissəsi beynəlxalq və ümummilli risk amillərindən – dünya iqtisadi inkişafın tsikliliyi, bütövlükdə dünya iqtisadiyyatında, eləcə də ayrı-ayrı sahələrdə iqtisadi tsiklin mərhələlərindən, dünya ticarətinin və qiymətlərin səviyyəsindən asılıdır. Məsələn, neftin dünya qiymətinin aşağı düşməsi təkcə neft nəhənglərinin pul gəlirlərinə deyil, eləcə də bütün ölkələrdə iri və kiçik neft tsikli müəssisələrinin fəaliyyətinə mənfi təsir göstərir. Maliyyə, istehsal-təsərrüfat, xidmət, innovasiya, idarəetmə və digər fəaliyyət növlərinin reallaşdırılmasında böyük itkilərin yaranması imkanları baxımından risklərin kəmiyyət və keyfiyyət cəhətdən qiymətləndirilməsi, həmçinin, idarə olunması problemi olduqca aktualdır. Risklərin idarə edilməsi sahibkarların əsas vəzifəsidir. Burada əsas fəaliyyət istiqaməti itkilərin baş verməsinin qarşısının alınması və yaxud onların minimuma endirilməsidir. Çünki, sahibkarlar dərk etməlidirlər ki, itkilərin doğurduğu səbəblər sadəcə olaraq səbəb kimi qalmır, bu müəyyən məbləğdə zərərdə ifadə olunur və istehsal xərclərini artırır. Ona görə də burada istər cari, istərsə də uzunmüddətli təsərrüfat qərarları mühüm əhəmiyyət kəsb edir. Burada risklərin idarə edilməsi texnologiyası və alqoritmi də vacibdir. Ümumiyyətlə, risklərin idarə edilməsi biznes fəaliyyətinə təsirinin yumşaldılması üzrə kompleks tədbirlərin işlənib hazırlanması və reallaşdırılmasını nəzərdə tutur. Riskin idarə edilməsinə kompleks yanaşma sahibkara mövcud resurslardan daha effektiv istifadə etməyə, məsuliyyəti bölüşdürməyə, biznes fəaliyyətini yaxşılaşdırmağa və riskin təsirinə qarşı təhlükəsizliyini təmin etməyə imkan verir. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində müəssisənin qarşılaşacağı risklərin aşkarlanmasından və onların yaranması səbəblərini öyrəndikdən, baş verə biləcək potensial itkiləri müəyyənləşdirdikdən sonra müəssisə qarşısında həmin risklərin azaldılması proqramının işlənib hazırlanması vəzifəsi durur [2, səh 54].

Riskin azalması maksimum çeviklik və məqsədyönlü fəaliyyət tələb edir. Bu məqsədyönlü fəaliyyət risklərin bütün potensial sferaları üzrə həyata keçirilməlidir. Risklərlə əlaqədar ən vacib məsələ riskin tərəflər arasında bölüşdürülməsi və riskdən olan itkilərin müəyyən edilməsidir. Bir qayda olaraq risklərin tənzimlənməsində onların sığortalanmasına üstünlük verilir. Lakin əsas vəzifə itkilərin özünü törədən və yaxud törədə biləcək amillərin qarşısının alınması üzrə proqramların tərtib edilməsidir, iqtisadi fəaliyyətin sağlamlaşdırılmasıdır. Çünki, risklərin sığortalanması bir növ kompensasiya səciyyəsi daşıdığına görə öz təbiəti etibarilə passiv rola malik olur, riskləri xəbərdarlıq etmir, onun nəticələrini bir növ nəzərə almış olur. Sahibkar və yaxud menecer risklərin azaldılması üsulunu seçərək ilk növbədə bu riskin sığorta predmeti ola bilib-bilməyəcəyini aydınlaşdırmalıdır. Əgər risk sığorta olunmayan riskə aiddirsə, təhlükənin neytrallaşdırılması üzrə digər metodlara baxmağa keçilməlidir.

Biznes fəaliyyətinin müflisləşmə riskinin azaldılması sahəsində əsas problemlərdən biri onların iqtisadi təhlükəsizliyin təmin edilməsidir. İqtisadi təhlükəsizliyin təmin edilməsinin başlıca şərtlərdən biri dövlətin inhisarlaşmaya qarşı apardığı mübarizə və onun həyata keçirdiyi antiinhisar siyasətinin çevikliyidir. Çünki, inhisarçılıq meyilləri azad rəqabət mühitini sıxışdırır və iqtisadi mühitdəki neqativ təsirləri gücləndirir. Dövlət antiinhisar tədbirləri həyata keçirməklə əsas bazar mexanizmlərindən biri kimi sağlam rəqabət mühiti yaratmağa can atır. Sağlam rəqabətə şərait yaradılması bazarın imkanlarından bütün sahibkarlıq subyektlərinin ədalətli şəkildə yararlanması, inhisarçı meyillərin hüquqi şəkildə məhdudlaşdırılmasını təmin edə bilər. Sağlam rəqabət bütövlükdə cəmiyyətin inkişafı maraqlarına cavab verməlidir. Burada cəmiyyətin maraq dairəsində olan məsələlərə milli istehsalın qorunması və inkişafı, istehlakçıların hüquqlarının qorunması, regionların inkişafı, səmərəli məşğulluğun təmin edilməsi, sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafı və stimullaşdırılması kimi məsələlər nəzərdə tutulur. Heç bir sahibkar bütün növ risklərdən yayına bilməz, onların böyük bir qismini o, öz üzərinə götürür, yəni şüurlu olaraq riskə gedir və edilən risklər nəticəsində yaranan zərərlərin əvəzi ödənilməz itkilərə gətirib çıxarmayana qədər sahibkarlıq fəaliyyəti ilə məşğul olur [4, səh.76].

Ümumilikdə biznes fəaliyyətinin müflisləşmə riskinin azaldılması yollarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- sahibkarlıq fəaliyyətində innovasiya layihələrinin reallaşdırılması prosesində meydana çıxa bilə-

cək əlavə problemlərin nəzərə alınması, onların aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi;

- bazar konyunkturasının dəyişmə meylinin proqnozlaşdırılması, innovasiya layihələrinin həyata keçirilməsi üçün tələb olunan əlavə xidmətlərə tələbatın səviyyəsinin öyrənilməsi;

- investisiya layihələrinin həyata keçirilməsi prosesində gözlənilən riskdən (risklərdən) sığortalama;

- səmərəli kreditləşdirilmə metodlarının tətbiqi;

- nəzərdə tutulmayan xərclərin bağlanması üçün ehtiyat vəsaitin toplanması;

- yüksək riskli investisiya layihələrinin həyata keçirilməsinə maraqlı tərəfdaşların cəlb edilməsi yolu ilə riskin bölüşdürülməsi və s.

**Nəticə**

Bütün bunları yekunlaşdıraraq deyə bilərik ki, biznes fəaliyyətinin müflisləşmə riskinin müəyyən edilməsinin və idarə olunmasının əsas məqsədi onun fəaliyyətinin keyfiyyətcə yeniləşdirilməsinə yönəltməkdən ibarətdir. Bu məqsədlə aşağıdakı tövsiyələrin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- biznes fəaliyyətinin müflisləşmə riskinin təhlili və diaqnostikası zamanı təhlilin kompleksliliyi təmin edilməli və sistemli yanaşma metoduna üstünlük verilməlidir;

- kreditor və debitor borclarının, qısamüddətli və uzunmüddətli maliyyə qoyuluşlarının səmərəli idarə edilməsinin təşkili zəruridir;

- müəssisələrin istehsal aparatının yeniləşməsində mütərəqqi üsullardan və formalardan istifadə olunması onların rəqabət qabiliyyətinin yüksəldilməsinə təminat yaratmış olardı;

- sağlam rəqabət mühitinin sahəsinin təmin edilməsi məqsədilə dövlət tədbirləri sisteminin təkmilləşdirilməsi zəruridir;

- biznes subyektlərinin fəaliyyətində əsaslı kəmiyyət və keyfiyyət dəyişikliklərinə nail olmaq üçün yeni texnologiyaların işlənməsindən və transfer olunmasından istifadə etmək lazımdır;

- biznes fəaliyyəti qarşısında duran məqsədlərə uyğun olaraq müvafiq innovasiya layihələrinin seçilməsi, onların istehsalata tətbiqi proseslərinə təcrübəli məsləhətçilərin, tərəfdaşların, ortaqların cəlb edilməsi zəruridir;

- regional innovasiya infrastrukturlarının xidmətlərindən geniş istifadə etmək vacibdir.

Yuxarıda irəli sürdüyümüz təklif və tövsiyələr bütövlükdə biznes fəaliyyətinin müflisləşmə riskinin müəyyənləşdirilməsi və onların azaldılması baxımından əhəmiyyətli ola bilər.

## ƏDƏBİYYAT

1. Abbasov A.B., Abbasov S.A. Maliyyə biznesi. Bakı, İqtisad Universitetinin Nəşriyyatı, 2014. 356 səh. 2. Kazımlı X.H., Quliyev İ.İ. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. Baki, İqtisad Universitetinin nəşriyyatı, 2011.187 səh. 3. Vəliyev D.Ə. Azərbaycan iqtisadiyyatı. Bakı, Azərbaycan Universitetinin nəşriyyatı, 2010. 428 səh. 4. Yaroçkin V.İ., Buzanova Y.V. Biznesin və sahibkarlığın təhlükəsizliyinin əsasları. Rus dilindən tərcümə. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2008. 174 səh.

### Оценивание рисков банкротства бизнес деятельности

**М.С.Гусейнова, З.М.Гасымова**

В статье рассмотрена необходимость определения рисков банкротства бизнес деятельности. Исследованы оценивание рисков банкротства и пути их снижения. В конце статьи даны вводы, которые носит характер рекомендаций

***Ключевые слова:*** *бизнес, рикс, банкротство, экономическая безопасность, финансы*

### Risk assessment of bankruptcy business activities

**M.S.Huseynova, Z.M.Qasımova**

The article considers the need to determine the risk of bankruptcy of business activities. The bankruptcy risk assessment and ways to reduce it are investigated. At the end of the article are inputs that are of the nature of recommendations

***Key words:*** *business, riks, bankruptcy, economic security, finance*

*aidatagiyeva02@gmail.com*